**Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 441 nömrəli Fərmanının ~~1.10-cu,~~ 1.11-ci, 1.19-cu, 1.21-ci, 1.23-cü və 1.24-cü yarımbəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:** [1]

1. ~~"Dövlət fitosanitar nəzarəti xidmətinin icrası məcburi olan qərarlarının *və göstərişlərinin* forması, onların tərtib edilməsi və verilməsi Qaydası",~~ "Fitosanitar nəzarəti məntəqələrinin yerləşdirilməsi və fəaliyyəti Qaydası", "Pestisid ehtiyatının yaradılması və istifadəsi Qaydaları, pestisidlərin növlər üzrə ehtiyat Normaları", "Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin uçot və hesabatının aparılması Qaydası ", "Əkin sahəsində və digər kənd təsərrüfatına yararlı torpaqlarda aqrokimyəvi tədqiqat işlərinin aparılması, sahələrə aqrokimyəvi pasportların verilməsi və kartoqramların hazırlanması Qaydaları" və Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövriyyəsinə dair vahid statistik hesabat formaları və təqdim edilməsi Qaydası " təsdiq edilsin (əlavə olunur).[2]

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 25 yanvar 2007-ci il
№ 14

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2007-ci il 25 yanvar tarixli 14 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

# Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövriyyəsinə dair vahid statistik hesabat formaları və təqdim edilməsi

## QAYDASI

1. Bu Qayda "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 441 nömrəli Fərmanının 1.24-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövriyyəsinə dair vahid statistik hesabat formalarını və təqdim edilməsi mexanizmini müəyyən edir.

2. Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin idxalı, ixracı, istehsalı, saxlanması, satışı və tətbiqi ilə məşğul olan hüquqi və fiziki şəxslər pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövriyyəsinə dair hesabatı bu Qaydanın əlavəsindəki nümunəvi formaya uyğun olaraq hər il (rübdə bir dəfə) hazırlayaraq hesabat dövründən sonrakı ayın 5-nə kimi Azərbaycan Respublikasının *Qida Təhlükəsizliyi Agentliyinə (bundan sonra - Agentlik)* təqdim edirlər.[3]

3. Hesabat formasının "A" sütununda gətirilən pestisidlər, bioloji preparatlar və aqrokimyəvi maddələr ardıcıl olaraq sıra nömrələri ilə göstərilir.

4. *Agentlik* bu Qaydanın 2-ci bəndində göstərilən hesabatları təhlil edərək, onları icmal şəklində hər il rübdə bir dəfə, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə təqdim edir.[4]

"Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövriyyəsinə dair vahid statistik hesabat formaları və təqdim edilməsi Qaydası"na əlavə

**Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövriyyəsinə dair vahid hesabat forması**[5]

Alınmış ilkin məlumatların məxfi saxlanmasına zəmanət verilir

Hesabatı təqdim edən fiziki və hüquqi şəxslər:

adı____________________________________________________

ünvanı

_______________

_______________

_______________

___

Hesabat forması fiziki və hüquqi şəxslər tərəfindən hesabat rübündən sonrakı ayın 5-nə kimi Azərbaycan Respublikasının *Qida Təhlükəsizliyi Agentliyinə*) təqdim olunur. *Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi* icmal hesabatı ayın 20-dən gec olmayaraq Dövlət Statistika Komitəsinə təqdim edir. [6]

yerləşdiyi rayon(şəhər)____________________________________

mülkiyyət növü____________________________________________

*lisenziyanın qeydiyyat nömrəsi və tarixi* _____________________

hesabat verən fiziki və hüquqi şəxslərin sayı_________________

(*Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyində* doldurulur)

| İdarə sənədlərinin təsnifatı üzrə fərmanın kodu | Müəssisənin identifikasiya (statistik) kodu | VÖEN |
|---|---|---|

Pestisidlərin. bioloji preparatların və aqrokimyəvi maddələrin dövriyyəsi

(artan yekunla)

| №-si | Preparatın adı | Preparatın növü (pestisid, aqrokimyəvi maddə və sair) | İstehsal edən ölkənin, şirkət və ya firmanın adı | Ölçü vahidi | İlin əvvəlinə qalıq | Mədaxil | Məxaric | döv |
|---|---|---|---|---|---|---|---|---|
| A | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | |
| | | | | | | | | |
| | | | | | | | | |

Hesabat tərtib edənin soyadı, adı, atasının adı ________________________________________

(imza)

"_____" ___________________ 200 __ il